

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 51 (22.962)

*16 mart 2018-ci il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Martın 15-də Azərbaycanın paytaxtında "İnklüziv cəmiyyətlərin qurulması üçün fərqliliklərin aradan qaldırılması" mövzusunda VI Qlobal Bakı Forumu işə başlayıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva forumun açılış mərasimində iştirak ediblər.

Dövlətimizin başçısı tədbirdə nitq söyləyib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 15-də İran İslam Respublikasının xarici işlər naziri Məhəmməd Cavad Zərifin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

* * *

Prezident İlham Əliyev martın 15-də Beynəlxalq Türk Akademiyasının prezidenti Darxan Kıdırəliyə "Dostluq" ordenini təqdim edib.

* * *

Dövlətimizin başçısı martın 15-də Albaniya Respublikasının Prezidenti İlir Meta ilə görüşüb.




## İran İslam Respublikasının Azərbaycandakı səfirliyinin hərbi attaşesi Naxçıvan Muxtar Respublikasına səfərə gəlmişdir

Martın 14-də İran İslam Respublikasının Azərbaycandakı səfirliyinin hərbi attaşesi Əli Seyf Naxçıvan Muxtar Respublikasına səfərə gəlmişdir. Səfər çərçivəsində qonaq martın 15-də əvvəlcə ulu öndər Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsini ziyarət etmiş, Heydər Əliyev Muzeyində olmuşdur.

Dahi şəxsiyyətin ömür yolunu əks etdirən dəyərli ekspozisiyada ulu öndərimizin uşaqlıq və gənclik dövrü, təhsil illəri, ilk əmək fəaliyyəti, 1969-1982-ci illərdə Azərbaycana rəhbərliyinin birinci dövrü, Moskvada çalışdığı və yaşadığı dövrü, Naxçıvana qayıdışı, muxtar respublikaya rəhbərlik etdiyi illəri və həmin dövrdə Naxçıvan Muxtar Respublikası ilə İran İslam Respublikası arasındakı əməkdaşlıq əlaqələrini əks etdirən sənədlər, tarixi fotolar və digər qiymətli eksponatlar haqqında qonağa ətraflı məlumat verilmişdir.

İran İslam Respublikasının Azərbaycan Respublikasındakı səfirliyinin hərbi attaşesi Əli Seyf sonra Əlahiddə Ümumqoşun Ordunun komandanı, general-leytenant Kərəm Mustafayevlə görüşmüşdür. Əli Seyf muxtar respublikanın hərtərəfli inkişafının onda böyük təəssürat oyatdığını bildirmiş, göstərilən qonaqpərvərliyə görə minnətdarlığını ifadə etmişdir.

Əlahiddə Ümumqoşun Ordunun komandanı, general-leytenant Kərəm Mustafayev Naxçıvan Muxtar Respublikası ilə İran İslam Respublikası arasındakı mövcud əməkdaşlığın əsasının ulu öndər Heydər Əliyev tərəfindən qoyulduğunu bildirmiş və hazırda bu əməkdaşlığın bütün sahələr üzrə uğurla davam etdiyini diqqətə çatdırmışdır. Qeyd olunmuşdur ki, Naxçıvan Muxtar Respublikasının hərtərəfli inkişafı ordu quruculuğu sahəsində də mühüm nailiyyətlərin qazanılmasına imkan vermişdir.

Günün ikinci yarısında İran İslam Respublikasının Azərbaycandakı səfirliyinin hərbi attaşesi Əli Seyf "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasında olmuşdur. "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının komandiri general-mayor Asəf Quliyevlə keçirilən görüşdə İran İslam Respublikası ilə Naxçıvan Muxtar Respublikası arasında əlaqələrin yüksək səviyyədə olduğu vurğulanmış, sərhəd xidmətinin bu əlaqələrin inkişafında məxsusi rol oynadığı diqqətə çatdırılmışdır.

Görüşdə hər iki tərəfdən sərhədlərin mühafizəsində və qarşılıqlı əlaqələrin inkişafında bundan sonra da əməkdaşlığın yüksələn xətlə davam etdiriləcəyinə əminlik ifadə olunmuşdur.

Qeyd edək ki, İran İslam Respublikasının Naxçıvandakı Baş konsulu Mənsur Ayrom keçirilən görüşlərdə iştirak etmişdir.

**"Şərq qapısı"**

## İranın Şərqi Azərbaycan Dəmir Yollarının nümayəndə heyəti Naxçıvanda səfərdə olub

Martın 14-də Naxçıvan şəhərində İran İslam Respublikası Şərqi Azərbaycan Dəmir Yollarının Baş direktoru Şapur Arslaninin başçılıq etdiyi nümayəndə heyəti ilə "Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyətinin nümayəndə heyəti arasında ikitərəfli görüş keçirilmişdir.

Görüşdə Naxçıvan-Təbriz-Tehran-Məşhəd beynəlxalq sərnişin qatarının fəaliyyəti, İran İslam Respublikası üzərindən Naxçıvan Muxtar Respublikasına və əks-istiqamətdə yük daşınması ilə əlaqədar texniki məsələlər, eyni zamanda gələcək əməkdaşlığın perspektivləri geniş müzakirə edilmişdir. Görüşdən sonra Naxçıvan və Culfa stansiyalarında sərnişinlərin gömrük və sərhəd buraxılışı qeydiyyatının asanlaşdırılması məqsədilə quraşdırılmış yeni avadanlıqlara baxış keçirilmişdir.

Daha sonra nümayəndə heyəti Duzdağ Fizioterapiya Mərkəzi və "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksi ilə tanış olmuşdur.

***"Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyətinin mətbuat xidməti***

## Təhsilin inkişafı diqqət mərkəzindədir

Muxtar respublikada təhsilin inkişafı diqqətdə saxlanılır. Ötən ay distant dərslərin təşkili davam etdirilib, Ədəbiyyat Muzeyi, Naxçıvan Muxtar Respublikası Ekoloji Tərbiyə Mərkəzi, AMEA Naxçıvan Bölməsi və Xatirə Muzeyi ilə ümumtəhsil məktəbləri arasında interaktiv dərslər keçilib.

Müəllimlərin müasir təlim metodlarından, informasiya texnologiyalarından və elektron lövhələrdən istifadə bacarıqlarının təkmilləşdirilməsi məqsədilə muxtar respublika ümumtəhsil məktəblərində fevral ayında 217 saat nümunəvi dərs tədris olunub. Ötən ay ümumtəhsil məktəblərində buraxılış imtahanlarının birinci mərhələsi üçün hazırlıq işləri görülüb, V-VIII siniflər üzrə test-sınaq imtahanları keçirilib. Azərbaycan Respublikası məktəblilərinin Fənn Olimpiadasının rayon (şəhər) mərhələsində 652 şagird iştirak edib, onlardan 226-sı respublika mərhələsinin yarımfinalında iştirak etmək hüququ qazanıb.

Muxtar respublikamızda peşə təhsilinin inkişafı istiqamətində həyata keçirilən tədbirlər nəticəsində fevral ayında müxtəlif kurslar üzrə, ümumilikdə, 266 müdavim təhsilini başa vurub.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

## Məntəqə seçki komissiyalarının üzvləri üçün növbəti seminar-treninq



*11 aprel 2018-ci ildə keçiriləcək Azərbaycan Respublikası Prezidenti seçkilərinə hazırlıqla əlaqədar olaraq məntəqə seçki komissiyalarının üzvləri üçün təşkil edilən növbəti seminar-treninq 5 saylı Şahbuz-Babək Dairə Seçki Komissiyasının iclas zalında keçirilib.*

Tədbiri giriş sözü ilə açan komissiyanın sədri Tamaddin Hüseynov seçki məntəqələrində səsvermə hazırlanması barədə danışıb. O, seçki məntəqələrində səsvermə kabinələrinin təşkili, yerləşdirilməsi zəruri olan sənədlər və avadanlıqlar haqqında məlumat verib, seçki prosesinin şəffaflığını, seçicilərin səsvermədə mütəşəkkil şəkildə iştirakını təmin etmək üçün qarşıda duran vəzifələrdən bəhs edib. Çıxışda beynəlxalq müşahidəçilərin, qeydə alınmış namizədlərin, onların səlahiyyətli nümayəndələrinin və vəkil edilmiş şəxslərinin, siyasi partiyaların, siyasi partiyalar bloklarının səlahiyyətli nümayəndələrinin, vəkil edilmiş şəxslərin və KİV nümayəndələrinin seçki prosesini müşahidə etmələrinin təmin olunacağı da vurğulanıb. Tamaddin Hüseynov səsvermə günü səsvermə otağında kimlərin ola biləcəyi və zəruri hallarda seçki məntəqəsinə kimlərin dəvət oluna biləcəyi barədə də ətraflı məlumat verib.

Dairə seçki komissiyasının katibi Nazim Piriyev çıxışında səsvermə prosesindən danışaraq qeyd edib ki, məntəqə seçki komissiyasının sədri komissiya üzvləri arasında iş bölgüsü apararkən qanunvericiliyin tələblərini gözləməlidir. Səsvermə prosesinin gedişi, məntəqə seçki komissiyası üzvlərinin yerinə yetirəcəyi vəzifələr, səsvermə günü seçicidən tələb olunan sənədlər, hər bir seçicinin səsvermə hüququndan istifadə zamanı tələb olunan şəraitin yaradılması üçün zəruri prosedur qaydaları seminar-treninq iştirakçılarına izah edilib.

Seminarda çıxış edən dairə seçki komissiyasının baş məsləhətçisi Asim Quliyev səslərin sayılması və protokolların doldurulması barədə məlumat verərək bildirib ki, bu prosesdə iştirak etmək hüququ olan şəxslərdən başqa, hamının seçki məntəqəsini tərk etməsi təmin edilməli və seçki məntəqəsi bağlanmalıdır. Səslərin hesablanma prosesi, bütövlükdə, səsvermə otağında həyata keçirilməlidir. Daşınan və daşınmaz seçki qutuları, seçici siyahısı və digər seçki materialları səslərin hesablanması başa çatanadək həmin otaqda qalmalıdır.

Asim Quliyev sonda səslərin hesablanması və protokolun doldurulması mərhələlərini komissiya üzvlərinə ayrı-ayrılıqda izah edib, növbəti prezident seçkilərinin də demokratik şəkildə keçiriləcəyinə əminliyini ifadə edib.

**Xəbərlər şöbəsi**

## Pensiyaların maliyyələşdirilməsi vaxtından əvvəl başa çatdırılıb

Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu fevral ayında əmək pensiyalarının maliyyələşdirilməsini vaxtından əvvəl başa çatdırıb. Belə ki, 11 milyon 726 min 98 manat pensiyaçıların, 241 min 752 manat vəsait isə məcburi dövlət sosial sığorta ödəmələri almaq hüququ olan şəxslərin şəxsi hesablarına və ya poçt ünvanına köçürülüb, proqnoz tapşırıqlara 117,1 faiz əməl olunub. Həmçinin "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununa əsasən pensiya hüququ yaranmış 145 vətəndaşa əmək pensiyası təyin olunub.

"Əmək pensiyalarının sığorta hissəsinin indeksləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 9 fevral tarixli Sərəncamına müvafiq olaraq, Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu tərəfindən muxtar respublika üzrə bütün növ əmək pensiyaları üzrə hesablanmış artımlar əmək pensiyaçılarına ödənilib.

***Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidməti***

## Naxçıvanda təbii qaz təchizatı fasiləsiz həyata keçirilir

Muxtar respublikada istehlakçıların fasiləsiz və təhlükəsiz təbii qazla təmin edilməsi diqqət mərkəzindədir. "Naxçıvanqaz" İstehsalat Birliyi ötən ay qarşıda duran vəzifələri uğurla icra edib. Belə ki, fevral ayında daxil olan müraciətlərə əsasən 68 mənzil və müxtəlif təyinatlı obyektlər qazlaşdırılıb. Bu dövrdə yeni qaz boru xətlərinin quraşdırılması, yerinin dəyişdirilməsi, korroziyaya uğramış yeraltı yol, qapı keçidlərinin yerüstü keçidlərlə əvəz edilməsi işləri görülüb, 12 min paqonometrdən artıq müxtəlif diametrli polietilen və dəmir borulardan istifadə olunub.

Birliyin şəhər və rayon qaz istismar idarələrinin qəza dispetçer xidmətlərinə əhali və qeyri-əhali təbii qaz istehlakçıları tərəfindən 1431 çağırış daxil olub. Bu çağırışlarla bağlı bütün işlər keyfiyyətlə yerinə yetirilərək təbii qazın nəqli bərpa olunub. Həmçinin fevral ayında muxtar respublikanın qaz şəbəkəsində aşkarlanan 1400 qaz sızmasının da qarşısı alınıb.

***"Naxçıvanqaz" İstehsalat Birliyinin mətbuat xidməti***



# Naxçıvan Muxtar Respublikası dinamik və dayanıqlı inkişaf yolundadır

*Əminliklə söyləyə bilərik ki, bu gün Azərbaycan inkişaf və tərəqqi dövrünü yaşayır, böyük uğurlara imza atır. Həyata keçirilən kompleks islahatlar, geniş quruculuq işləri və yaradılan güclü iqtisadiyyat ölkəmizin əsas göstəriciləridir. Bu barədə regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı dövlət proqramının icrasının dördüncü ilinin yekunlarına həsr olunan konfransda ölkə Prezidenti cənab İlham Əliyev demişdir:* ***"Ölkəmiz bütün sahələrdə böyük uğurlara imza atmışdır. Bütün beynəlxalq mötəbər qurumların reytinqlərində Azərbaycan qabaqcıl yerlərdədir. Bu gün inkişaf parametrlərinə və vətəndaş həmrəyliyinə görə Azərbaycan dünyada nümunəvi ölkələrdən biridir".***

Qeyd etməliyik ki, bu möhtəşəm uğurların arxasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin düşünülmüş siyasəti, gərgin və yorulmaz fəaliyyəti, xalq-iqtidar birliyi dayanır. Regionların sosial-iqtisadi inkişafı ilə bağlı mərhələli proqramların qəbul və icra olunması hər bir bölgənin tarazlı inkişafını təmin edib. Bölgələrin inkişafında Naxçıvan Muxtar Respublikası bütün parametrlər üzrə diqqəti cəlb edir. Naxçıvan diyarı ölkəmiz üçün həmişə strateji əhəmiyyətli bir bölgə olub. Ümummilli liderimiz Heydər Əliyevin düşünülmüş və uzaqgörən siyasətində də bu amil həmişə üstün yer tutub. Bəlkə də, bu mənada, müdrik insan, unudulmaz dahi rəhbər, siyasi fəaliyyətinin ayrı-ayrı dövrlərində bu diyarın möhkəmlənməsinə və inkişafına xüsusi diqqət və qayğı göstərib.

Bununla belə, ötən əsrin 80-ci illərinin ikinci yarısından başlanan siyasi hadisələr Azərbaycanın, eləcə də Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatına və sosial-mədəni həyatına ağır zərbələr vurdu. Azərbaycan SSR-in sosial-iqtisadi həyatında baş verən geriləmələr Naxçıvanda da özünü göstərdi. 80-ci illərin sonu, 90-cı illərin əvvəllərində muxtar respublikanın iqtisadiyyatı böhran vəziyyətinə düşdü. Muxtar respublikanın əsas sahələrinin inkişaf sürəti kəskin surətdə azaldı. 1989-1991-ci illərdə sənaye istehsalı 26,6 faiz, kənd təsərrüfatında məcmu məhsul 25,5 faiz, heyvandarlıqda isə 34 faiz azalmışdı. Nəticədə, istehsal olunan milli gəlirin həcmi təqribən beş dəfə aşağı düşmüşdü. Muxtar respublikada ümumi məhsulun həcmi 1990-cı ildə 1985-ci illə müqayisədə 92,6 faiz olmuşdu. Muxtar respublikanın Ermənistan tərəfdən nəqliyyat və iqtisadi blokadaya alınması Naxçıvan iqtisadiyyatına ağır zərbə vurdu. Azərbaycan dəmir yolunun Qarçevan-Mehri hissəsinin işləməməsi, avtomobil yollarının bağlanması, Bakı və Azərbaycan rayonları, eləcə də ittifaq respublikaları ilə əlaqələrin kəsilməsinə, idarə, müəssisə, tikinti təşkilatlarının fəaliyyətinin dayanmasına səbəb olmuşdu. 1989-cu ilin birinci yarısında tək istehsal müəssisələri 1,1 milyon rubl az məhsul istehsal etmiş, tikinti təşkilatları 1,5 milyon rubl dəyərində məhsul ala bilməmişdi.

Dəmir yolu nəqliyyatında vəziyyətin gərginləşməsi Naxçıvan MSSR-in iqtisadiyyatına ağır zərbə vurmaqla yanaşı, əhalinin mənəvi-psixoloji vəziyyətinə də təsir edir, onsuz da ağır olan ictimai-siyasi vəziyyətin daha da ağırlaşmasına səbəb olurdu.

Xalqımızın yenilməz oğlu, ulu öndər Heydər Əliyev 1990-cı il iyulun 22-də Naxçıvana gəlməsi ilə xalqın yaşamaq və Naxçıvanı xilas etmək ümidlərini artırdı. Naxçıvanlılar ümummilli lider Heydər Əliyevin gəlişini çox böyük sevinc və coşqu ilə qarşıladılar. Qüdrətli dövlət xadimi Heydər Əliyev Naxçıvana qayıdışı ilə muxtar respublikanı və bütün Azərbaycanı real təhlükədən xilas etdi.

Dünya şöhrətli siyasətçinin Naxçıvanda olması və yaşaması Naxçıvan Muxtar Respublikasının Dağlıq Qarabağın aqibətinə düşməsinə imkan vermədi. Heydər Əliyev müdrikliyi, xalqa inamı, Heydər Əliyev-xalq birliyi Naxçıvanı xilas etdi.

Azərbaycanın, o cümlədən onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan MSSR-in ərazi bütövlüyünün pozulması, ermənilərin muxtar respublika ərazisinə silahlı hücum etməsi, ölkə rəhbərlərinin tədbir



görməməsi və Qarabağ münaqişəsinin həll olunmaması Naxçıvanda xalq hərəkatının artmasına səbəb oldu. Ümummilli liderimiz Heydər Əliyevin qeyd etdiyi kimi: ***"... o illərdə, xüsusən 1990-1991-ci illərdə Naxçıvanda xalq hərəkatı çox güclü idi. Müstəqillik yolunda mübarizə aparan adamlar Naxçıvan əhalisinin, demək olar, əksəriyyətini təşkil edirdi. Naxçıvanın müstəqillik, milli-azadlıq əhval-ruhiyyəsi bütün Azərbaycana təsir edirdi. Məhz bunların nəticəsində Naxçıvan bir çox ciddi addımlar atdı və nəhayət, Azərbaycan Respublikasının dövlət müstəqilliyinin əldə edilməsində Naxçıvan Muxtar Respublikası öz xidmətlərini göstərdi".***

Bu illərdə Heydər Əliyevin Naxçıvanda xalqın mübarizəsini azadlığa, müstəqillik qazanılmasına, dövlətçilik ənənələrinin bərpa və inkişaf etdirilməsinə yönəldilən fəaliyyəti olduqca mühüm rol oynamışdı.

Ulu öndər Heydər Əliyevin tam yekdilliklə Azərbaycan SSR və Naxçıvan MSSR ali qanunverici orqanlarına üzv seçilməsi ilə müstəqillik tariximizə doğru daha bir uğurlu addım atıldı. Naxçıvan MSSR Ali Sovetinin ilk sessiyasına ulu öndərin sədrlik etməsi bir sıra tarixi qərarların qəbul edilməsi ilə nəticələndi. Ali Sovetin 1990-cı il noyabrın 17-21-dəki sessiyasının qəbul etdiyi siyasi əhəmiyyətli qərarlar müstəqillik tariximizə qızıl hərflərlə yazıldı. Naxçıvan MSSR Ali Sovetinin birinci sessiyası "Naxçıvan MSSR-in adının dəyişdirilməsi haqqında", "Naxçıvan Muxtar Respublikası Ali Dövlət hakimiyyəti orqanı haqqında", "Naxçıvan Muxtar Respublikasının dövlət rəmzləri haqqında", "1990-cı ilin yanvar ayında Bakı hadisələrinə siyasi qiymət verilməsi haqqında" və başqa məsələlərlə bağlı tarixi qərarlar





qəbul etdi. Sessiyada Naxçıvan MSSR adından "Sovet", "Sosialist" sözlərinin çıxarılması, Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli dövlət bayrağının bərpa edilməsi, onun Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi qəbul edilməsi ilə demokratik dəyişikliklər həyata keçirildi. Sovetlər Birliyinin yaşadığı bir dövrdə muxtar respublika Ali Sovetinin sessiyasında belə qərarların qəbul edilməsi böyük cəsarət və uzaqgörənlik tələb edirdi. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 1991-ci il 14 yanvar, 7 mart, 14 mart, 26 avqust tarixli sessiyalarında da cəsarətli və tarixi əhəmiyyətli qərarlar qəbul edildi.

Ulu öndər Heydər Əliyevin 1991-ci il sentyabrın 3-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilməsi Azərbaycan xalqının taleyində böyük siyasi əhəmiyyətə malik olan tarixi hadisə idi.

Böyük dövlət xadimi Heydər Əliyev Ali Məclisin Sədri olduqdan sonra Naxçıvan Naxçıvan Muxtar Respublikası Azərbaycanın ictimai-siyasi həyatında mühüm və əhəmiyyətli rol oynamağa başladı. Muxtar respublikada həyata keçirilən tədbirlər, demokratik dəyişikliklər, milli dövlətçiliklə bağlı qəbul edilən qərarlar Azərbaycanın müstəqilliyini möhkəmləndirmək yolunda məqsədyönlü fəaliyyət sahələri idi.

Heydər Əliyevin bütün fəaliyyəti muxtar respublikanın düşdüyü ağır vəziyyətdən çıxarılmasına, sərhəd kəndlərinin və muxtar respublikanın təhlükəsizliyinin, əhalinin ərzaqla təmin edilməsinə, sosial vəziyyətinin yaxşılaşdırılmasına, iqtisadi islahatların həyata keçirilməsinə, Naxçıvandan rus qoşunlarının çıxarılması və Milli Ordunun formalaşdırılmasına, Naxçıvanın blokadadan çıxarılmasına və beynəlxalq əlaqələrin yaradılmasına, qanunsuz silahlı dəstələrin ləğv edilməsinə, Naxçıvanın muxtariyyət statusunun ləğvinə çalışan qüvvələrin fəaliyyətlərinin qarşısının alınmasına və digər vacib məsələlərin həll edilməsinə yönəlmişdi. Qarşıya qoyulan bütün məsələlər Heydər Əliyev uzaqgörənliyi, cəsarət və qətiyyəti sayəsində həll edildi, Naxçıvan qorundu, onun düşmən əlinə keçməsinə imkan verilmədi. Ölkə Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi, ***naxçıvanlılar Heydər Əliyevi qorudular, Heydər Əliyev isə Naxçıvanı xilas etdi.***

Ulu öndər Heydər Əliyevin müstəqil Azərbaycanda hakimiyyətə qayıdışı zərurəti reallığa çevriləndə O, 1990-1992-ci illərdə düşmən təcavüzündən və fəlakətlər girdabından xilas etdiyi Naxçıvanı özünün dövlətçilik məktəbinin yeni nəsil nümayəndəsinə etibar etdi. Və məhz bundan sonra Azərbaycanın xilası və inkişafı missiyasını həyata keçirməyə başlayan ümummilli liderin bilavasitə rəhbərliyi altında müstəqilliyin verdiyi real imkanların ümummilli mənafelər naminə səfərbər və istifadə edilməsi kimi mühüm tarixi mərhələ başlandı. Azərbaycan Respublikası öz yoluna – dövlətçiliyin təkamülünün, sosial-iqtisadi inkişafın, elmi-mədəni tərəqqinin Heydər Əliyev yoluna qədəm qoydu.

1995-ci ilin son ayında cənab Vasif Talıbovun Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilməsi ilə Naxçıvanda yeni siyasi şərait yarandı, gələcək uğurlu inkişafın əsası qoyuldu və qısa zamanda bu, öz nəticələrini verməyə başladı. Çünki cənab Vasif Talıbov Naxçıvan Muxtar Respublikasının problemlərini aydın görür və onun həlli yollarını bilirdi. Qısa müddət ərzində muxtar respublika həyatının bütün sahələrində əsl canlanma müşahidə olunmağa başlandı. Quruculuq və abadlıq işləri geniş vüsət aldı. Həm paytaxtın, həm də bütövlükdə, muxtar respublikanın bütün yaşayış məntəqələrinin yeni inkişaf konsepsiyasına uyğun qurulmasının zəruri əsasları təsis edildi.

Müstəqillik illəri, xüsusilə 1995-2017-ci illər sosial-iqtisadi inkişaf baxımından Naxçıvan Muxtar Respublikasının tarixində mühüm mərhələ təşkil edir.

Blokadada olmasına baxmayaraq, muxtar respublikanın daxili imkanlarından və ehtiyat mənbələrindən səmərəli istifadə olunmuş, 1995-ci ildən başlanan sabitləşmə, dönüş və inkişaf konsepsiyası iqtisadi və sosial müstəvidə yüksələn xətlə davam etdirilmiş, iqtisadiyyatda müsbət meyillər daha da möhkəmləndirilmişdir.

Muxtar respublikada inkişafın təmin olunmasında regionların sosial-iqtisadi inkişafı ilə bağlı qəbul edilmiş dövlət proqramlarının uğurlu icrası mühüm əhəmiyyət kəsb edir. Dövlət proqramları sahibkarlıq fəaliyyətinin genişlənməsində, yeni müəssisələrin və iş yerlərinin yaradılmasında, irimiqyaslı infrastruktur layihələrin həyata keçirilməsində, əhalinin rifah halının daha da yaxşılaşdırılmasında yeni imkanlar yaratmışdır.

Naxçıvan Muxtar Respublikasında ötən müddətdə həyata keçirilmiş iqtisadi islahatlar qısa dövr ərzində makroiqtisadi sabitliyin bərqərar olunmasını təmin etmiş, iqtisadiyyatın dinamik inkişafına təkan vermişdir.

İqtisadi və sosial sahədə bütün makroiqtisadi göstəricilərin yüksəlişi təmin edilmiş, ümumi daxili məhsulun həcmi 1991-ci ilə nisbətən 137 dəfə artaraq, 2701 milyon manatdan çox olmuşdur.

Muxtar respublika iqtisadiyyatında prioritet sahə kimi qəbul edilən sənaye aparıcı rola malikdir. Sənaye sahəsində həyata keçirilən islahatların başlıca məqsədi mövcud sənaye müəssisələrinin fəaliyyətinin bərpası və yenidən qurulmasından, təbii ehtiyatlardan və əmək resurslarından istifadə əsasında yeni müəssisələrin yaradılmasından, sənaye məhsullarının artan istehsalının təşkilindən, sənayenin dayanıqlı və davamlı inkişafını təmin etməkdən ibarət olmuşdur.

Sənayenin əsas inkişaf istiqamətlərini dövlət mülkiyyətində olan sənaye müəssisələrinin fəaliyyətinin bərpa edilməsi, rəqabətədavamlı və ixracyönümlü istehsal sahələrinin yaradılması, səmərəli kredit mexanizminin qurulması, muxtar respublika əhalisinin tələbatının yerli istehsal hesabına ödənilməsi təşkil etmişdir.

Muxtar respublika sənayesinin əsas hissəsini təşkil edən emal sənayesində çörəkbişirmə, şəkər, mineral su, spirtli içkilər, siqaret, pivə, plastik qapı və pəncərə, plastik su boruları, hörgü və döşəmə üçün kərpic, üzlük daş, sement, gips, gips lövhələr, əhəng, məsaməli beton, karbon qazı, metaləritmə və onlarca digər istehsal sahələri yaradılmışdır.

*Ardı 3-cü səhifədə*



Mövcud resurslardan səmərəli istifadə etməklə hədəflərə yönələn məqsədli dövlət proqramlarının uğurlu icrası yüksək texnologiyalar əsasında mebel, maşınqayırma, metallurgiya, kimya, mədənçıxarma, yüngül və yeyinti sənayesi, kənd təsərrüfatı təyinatlı 858 istehsal və xidmət sahəsinin yaradılmasına şərait yaratmışdır.

Muxtar respublikada 90-cı illərin ortalarında 56, sonunda 163, 2000-2005-ci illər ərzində 229 sənaye müəssisəsi fəaliyyət göstərmişdir. 2005-ci ildə sənaye məhsulunun həcmi 41,2 milyon manat olmuşdur. 2006-cı ildə 44 istehsal müəssisəsi fəaliyyətə başlamışdır. 2007-ci ildə 32, 2008-ci ildə isə 37 sənaye müəssisəsi məhsul istehsal etməyə başlamışdı. Nəticədə, 164,5 milyon manatlıq sənaye məhsulu istehsal olunmuşdu. Əgər 1996-cı ilin əvvəlində muxtar respublikada 56 sənaye müəssisəsi mövcud idisə, 2010-cu ildə bu müəssisələrin sayı 423-ə çatmışdı. Burada çalışan işçilərin sayı 12 min 855 nəfər olmuşdur.

2010-cu ildə muxtar respublikada ilk dəfə olaraq minik avtomobillərinin istehsalını həyata keçirən “Naxçıvan Avtomobil Zavodu” MMC fəaliyyətə başlamışdır. İllik istehsal gücü 5000 ədəd avtomobil olan zavodda 12 modeldə avtomobil istehsal olunur. Daha 2 modeldə avtomobil buraxılmasına hazırlıq işləri görülür. Fəaliyyətə başladığı dövrdən 1 yanvar 2016-cı il tarixədək 4598 avtomobil istehsal olunmuşdur.

2003-cü illə müqayisədə 2013-cü ildə sənaye məhsulunun həcmi 49 dəfə artmışdır. 2013-cü ildə sənaye 29 faizlik payla ÜDM-in tərkibində ilk yerə sahib olmuş, istehsalın həcmi



863 milyon manata çatmışdır. Bir il sonra isə 892 milyon manatlıq sənaye məhsulları istehsal edilmişdir. 2015-ci ildə isə 917 milyon manatlıq sənaye məhsulu istehsal edilmişdir ki, bu da 1995-ci ildəki göstəricidən 100,4 dəfə çoxdur.

2015-ci ildə sənaye müəssisələrinin sayı 439-a, orada işləyənlərin sayı 15 min 752-yə çatmışdır. Sənayenin modernləşdirilməsini təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 6 iyun tarixli fərmanı ilə “Sənaye parkları haqqında Əsasnamə” təsdiq olunmuşdur.

Müasir texnologiyalara əsaslanan yeni sənaye müəssisələrinin işə salınması daxili tələbatı yüksəkkeyfiyyətli məhsullarla təchiz etməklə yanaşı, onların ixrac potensialını da artırmışdır. Bu istiqamətdə görülən işlərin nəticəsidir ki, 2015-ci ildə 316797 min ABŞ dollarından artıq həcmdə sənaye məhsulu ixrac olunmuşdur.

2014-cü ildə ölkəmizdə “Sənaye ili” elan edilmişdir. Bundan sonra “Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı” qəbul olunmuş, sənayenin modernləşdirilməsi və strukturunun təkmilləşdirilməsi, yüksək əlavə dəyər yaradan qabiliyyətli, elmtutumlu və innovativ istehsalın genişləndirilməsi yeni istehsal sahələri ilə bağlı ixtisaslı kadrların hazırlanması üçün tədbirlər görülmüşdür. “Sənaye ili” çərçivəsində 200-dək, o cümlədən 40-dan çox orta və iri müəssisə açılmışdır.

Naxçıvan Muxtar Respublikasında sənayeləşmənin həyata keçirilməsi ilə əlaqədar sənaye müəssisələrinin yaradılmasına və inkişafına xüsusi fikir verilmişdir. Yaradılan sənaye müəssisələri daxili bazar üçün məhsul istehsal etməklə yanaşı, ixracyönümlü məhsulların istehsalını da gücləndirmişdir.

Xüsusilə son illərdə qurulan “Gəmiqaya” Şirkətlər Qrupuna aid müəssisələr, Naxçıvan avtomobil zavodu, “Badamlı” mineral sular zavodu, “Cahan Holdinq” Kommersiya Şirkətlər İttifaqının müəssisələri, Kərpic zavodu, Mebel fabriki, “Dizayn” MMC-nin müəssisələri, “Şərab-2 Yeddilər Aqrar Sənaye Kompleksi” MMC, “Sirab” mineral sular zavodu, metallurgiya zavodu, sement zavodu ən yüksək standartlar səviyyəsində məhsul istehsal edirlər.

Azərbaycan Respublikasında yaranmış sabitlik, iqtisadi sahədə əldə olunmuş nailiyyətlər muxtar respublikada 1995-ci ildən başlayaraq tikinti-quraşdırma və abadlıq sahəsində də əsaslı işlər görməyə şərait yaratmışdır.

Muxtar respublikanın uzunmüddətli dövrdə dayanıqlı və tarazlı inkişafının təmin edilməsində investisiyaların cəlbi xüsusi rol oynayır. 2015-ci ildə əsas kapitala yönəldilən investisiyaların həcmi 1995-ci ildəki göstəricini 312 dəfə üstələyərək, 951196 min manatdan çox olmuşdur.

Ümumiyyətlə, 1996-cı ildən 2016-cı ilin yanvarınadək muxtar respublikada iqtisadi və sosial sahələrə 6696470 min manat həcmində investisiya yönəldilmişdir.

1996-2017-ci illərdə muxtar respublikada 278 inzibati bina, mənzil təsərrüfatı üzrə 48 obyekt, 56 nasos stansiyası, 292 subartezian quyusu, 100 körpü, 198 elm və təhsil, 258 mədəniyyət, 197 səhiyyə müəssisəsi, 25 idman obyekti, əlil, məcburi köçkün, qaçqın, şəhid ailələri, təbii fəlakətdən zərər çəkənlər və digər bu kimi kateqoriyalardan olan şəxslər üçün 480 fərdi ev, 820 istehsal və xidmət obyekti və digər obyektlər tikilmiş, 258 inzibati bina, mənzil təsərrüfatı üzrə 637 obyekt, 114 nasos stansiyası, 111 subartezian quyusu, 62 körpü, 158 elm və təhsil, 163 mədəniyyət, 56 səhiyyə müəssisəsi, 14 idman obyekti, əlil, məcburi köçkün və şəhid ailələri üçün 21 fərdi ev və digər obyektlər yenidən qurulmuşdur.

Muxtar respublikada yaşayış məntəqələrinin abadlaşdırılması, həmin yaşayış yerlərində səmərəli idarəetmənin və əhaliyə göstərilən xidmətlərin səviyyəsinin yüksəldilməsi istiqamətində ötən dövr ərzində 4 qəsəbə və 125 kənd mərkəzi istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikasında tikinti-quruculuq və abadlıq işləri ildən-ilə genişlənir. Yüksək zövqlə, peşəkarlıqla, Şərq və Qərb memarlıq elementlərindən ustalıqla və yerli-yerində istifadə etməklə tikilən binalar, təmir olunan və yenidən qurulan inzibati və sosial obyektlər, salınan gülkarlıqlar, yaradılan səliqə-sahman böyük quruculuq və abadlıq işlərinin yüksək səviyyədə görüldüyünü təsdiq edir. Bütün bu işlərə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov diqqət və həssaslıqla yanaşır, hər bir tikinti, quruculuq və abadlıq işlərinin ən yüksək səviyyədə, keyfiyyətlə aparılmasına nəzarət və rəhbərlik edir.

Ümummilli lider Heydər Əliyev 1999-cu ildə Naxçıvana səfər edərkən burada görülən işlərdən, həyata keçirilən tədbirlərdən razı qaldığını bildirmiş, bu işlərin aparılmasında təşkilati və rəhbər rolu oynayan cənab Vasif Talıbovun işini xüsusi vurğulayaraq demişdir: ***“Mən məmnuniyyətlə demək istərdim ki, son dörd il içərisində (1995-1999-cu illər) Naxçıvanda işlər lazımi səviyyədə gedir. Vasif Talıbovu bu vəzifəyə seçəndə mən onun çox xüsusiyyətlərini bilirdim. Amma o, çox gənc idi. Daxilən bir az fikirləşdim ki, gəncliyinə görə bəlkə də ağır, çətin olar. Ancaq bu dörd il müddətində o, sübut etdi ki, Vətəninə, millətinə, xalqına sədaqətli olan adam yaşından asılı olmayaraq, böyük işlər də görə bilər...”***

Naxçıvan Muxtar Respublikasının 80 illik yubileyində ölkə Prezidenti cənab İlham Əliyev çıxışında Azərbaycanın qədim diyarı olan Naxçıvanın sürətlə inkişaf etməsini və inamla irəliləməsini fərəh hissi ilə qeyd etdi: ***“Mən çox sevinirəm ki, Naxçıvanda gözəl quruculuq və abadlıq işləri aparılır. Blokada şəraitində yaşayan, Azərbaycanın əsas hissəsindən ayrı düşmüş Naxçıvan yaşayır, güclənir və irəliyə doğru inamla addımlayır. Fürsətdən istifadə edərək mən Naxçıvan rəhbərliyinə və şəxsən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbova görülən bütün işlərə görə öz dərin minnətdarlığımı bildirirəm”.***

*(ardı var)*

***İsmayıl HACIYEV***
***AMEA Naxçıvan Bölməsinin sədri, akademik***

***“Xalq qəzeti”, 13 mart 2018-ci il***

# Moskva müqaviləsinin tarixi əhəmiyyəti

***Ötən əsrin 20-ci illərində Rusiyada siyasi hakimiyyət hələ möhkəmlənməmişdi. Ölkədə vətəndaş müharibəsi və xarici hərbi müdaxilə baş verir, imperialist dövlətləri bolşevik hakimiyyətinə qarşı müxtəlif təxribatlar törədirdi. Bu fikirləri eyni ilə Türkiyəyə də aid etmək olar. Osmanlı imperiyası süqut etmiş, Mustafa Kamal Paşa Türkiyəni xilas etmək üçün mübarizəyə başlamışdı. Belə bir şəraitdə Rusiya-Türkiyə yaxınlaşması tarixi proseslərin nəticəsi olaraq ortaya çıxdı. Son nəticədə, bu dövlətlər arasında müəyyən müqavilələr imzalandı. Əslində, bir sıra dövlətlər Türkiyə-Rusiya yaxınlaşmasını istəmirdilər. Çünki Birinci Dünya müharibəsində qalib gəlmiş böyük dövlətlər bir tərəfdən Türkiyəni məğlub edib özlərindən asılı vəziyyətə salmaq, digər tərəfdən isə Rusiyada bolşevik hökumətini devirmək, Azərbaycanda hakimiyyətə gəlmiş bolşevik hökuməti ilə yaxınlaşmasına yol verməməyə çalışırdılar.***

Həmin dövrdə Rusiyanın, İngiltərənin və ABŞ-ın Cənubi Qafqazda öz geosiyasi maraqlarını həyata keçirməsində başlıca rol oynayan amillərdən biri də məhz ermənilər idi. Qeyd etmək lazımdır ki, ermənilər bu dövlətlərin geosiyasi maraqlarının icrasına çevrilsələr də, öz növbəsində, dünyanın bu böyük güclərindən gələcəkdə qurulması planlaşdırılan “Ermənistan dövləti” üçün öhdəliklər tələb etmişdilər. Yəni böyük güclərlə ermənilər arasındakı əlaqələrə bir növ “qarşılıqlı istifadə və faydalanma” münasibətləri çərçivəsində yanaşılmalıdır. Müxtəlif dövrlərdə ermənilərdən faydalanaraq qarşılıqlı əməkdaşlıq çərçivəsində formalaşan böyük güclərin siyasətləri Qafqazdakı Azərbaycan türkləri, o cümlədən naxçıvanlılar üçün fəlakət mənbəyi olaraq ortaya çıxmış və minlərlə azərbaycanlının ermənilər tərəfindən soyqırımına məruz qalmalarına səbəb olmuşdur. Hətta Naxçıvanı bu dövlətlərin təhriki və dəstəyi ilə ermənilərə peşkəş etmək istəmişlər. Lakin naxçıvanlıların inadlı müqaviməti, görkəmli siyasi xadimlərin müdrik siyasəti Naxçıvanın ermənilərə verilməsinin qarşısını almışdır.

XX əsrin əvvəllərində ermənilər Naxçıvanı ələ keçirərək həm geniş torpaqlara sahib olmaq, həm də Türkiyənin Azərbaycan və dolayısıyla Orta Asiya ilə əlaqəsini gücləndirən yeganə dəhlizi bağlamaq istəyirdilər.

Azərbaycanda Sovet hakimiyyətinin qurulmasından sonra da, daşnakların təcavüzkar hərəkətləri nəticəsində Naxçıvan diyarında gərginlik hələ də davam edirdi. RSFSR hökumətinin daşnak hökuməti ilə danışıqlar vasitəsilə münaqişəni həll etmək cəhdi baş tutmadı. 1920-ci ilin iyulunda Naxçıvan, Culfa və Ordubad əhalisi Nəriman Nərimanova və Q.Orconikidzeyə məktubla müraciət etdi. Məktubda deyilirdi: “Yerli əhali öz qüvvəsi ilə daşnaklardan müdafiə olunur. Qızıl ordunun köməyi ilə bizim diyarı azad etməyi və Azərbaycana birləşdirməyi təmin etməyi təvəqqe edirik”.

XI Ordunun köməyi ilə 1920-ci il iyulun 28-də Naxçıvan diyarında Sovet hakimiyyəti quruldu və Naxçıvan SSR elan edildi, respublikanın ali hakimiyyət orqanı – Naxçıvan İnqilab Komitəsi yaradıldı. Avqustun 10-da Naxçıvan İnqilab Komitəsi Azərbaycan SSR Xalq Komissarları Sovetinin sədri Nəriman Nərimanova məktub göndərdi. Məktubda deyilirdi: “Naxçıvan camaatının çox böyük əksəriyyətinin qərarı ilə Naxçıvan diyarı özünü Azərbaycan SSR-in ayrılmaz tərkib hissəsi hesab etmişdir”.

Rusiya rəhbərlərinə gəldikdə isə onlar Türkiyə ilə diplomatik münasibətlər yaratmaq istəsələr də, Ermənistandan Türkiyəyə qarşı bir vasitə kimi də istifadə etməyə çalışırdılar. Ermənistan, Azərbaycan və Türkiyənin qarşılıqlı münasibətlərinə dair məsələlərin həllində İ.Stalin Rusiyanın mənafelərindən çıxış edərək, həmişə Ermənistanın mövqeyini müdafiə edirdi. O deyirdi: “Əgər bilmək istəyirlərsə ki, Zəngəzur və Naxçıvan kimə məxsus olmalıdır, onları Ermənistanın indiki hökumətinə vermək olmaz, sovet hökuməti olanda vermək olar”. İ.Stalinin bu çıxışından 21 gün sonra Ermənistanda Sovet hakimiyyəti quruldu. Bu o demək idi ki, İ.Stalin və Rusiya rəhbərliyi də Zəngəzur və Naxçıvanı Ermənistana vermək istəyirdi. Ermənistan bolşeviklərin nəzarətinə keçən kimi Azərbaycan Hərbi İnqilab Komitəsi 1 dekabr 1920-ci ildə bəyanatla çıxış etdi. Bəyanat Rusiyanın diktəsi ilə yazılmışdı və “iki sovet respublikası arasında ərazi mübahisələrinin” Azərbaycanın milli mənafelərinə zidd şəkildə həll edilməsinə yönəlmişdi.

Məlum bəyanatdan sonra Naxçıvanda daxili vəziyyət xeyli mürəkkəbləşmiş, mübahisə və münaqişələr səngiməkdənsə, daha da kəskinləşmişdi. Əslində, 1920-ci il dekabrın 28-də Naxçıvan əhalisinə öz müqəddəratını azad surətdə təyin etmək hüququ verildiyini bildirən Ermənistan SSR Hərbi İnqilab Komitəsi 1921-ci ilin əvvəllərindən başlayaraq heç bir bəyanat verməmiş kimi, Naxçıvana qarşı yenidən haqsız ərazi iddiaları irəli sürdü.

Vəziyyətin gərginləşdiyini görən Azərbaycan Respublikasının rəhbərliyi respublika Hərbi İnqilab Komitəsinin üzvü, Ədliyyə komissarı Behbud ağa Şahtaxtinskini Naxçıvana göndərdi. O, Naxçıvan, Şərur və Ordubad əhalisi ilə görüşlərində, mitinqlərdə yerli əhalinin kütləvi etirazını təşkil edərək mərkəzi hakimiyyətin Ermənistanın xeyrinə qəbul etdiyi qərarın qarşısını aldı. Naxçıvan diyarının əhalisi Azərbaycanın tərkibində muxtariyyət tələb edirdi. Ona görə də 1921-ci ilin yanvarında Azərbaycan, Ermənistan və Rusiya nümayəndələrinin təşəbbüsü və iştirakı ilə keçirilmiş rəy sorğusunda bölgə əhalisinin 90 faizindən çoxu Naxçıvan diyarının muxtariyyət statusunda Azərbaycanın tərkibində qalmasına səs verdi. Bu qərar Naxçıvanın gələcək müqəddəratında mühüm rol oynadı.

Naxçıvan məsələsi Rusiya-Ermənistan və Türkiyə-Ermənistan danışıqlarında da mühüm yer tuturdu. Ermənistan Rusiya və Türkiyə arasında siyasi manevrlər edərək onların münasibətlərindən və yaranmış şəraitdən istifadə etməyə çalışırdı. Rusiyaya gəldikdə isə o, Türkiyə ilə yaxınlaşmaq xəttini yeritsə də, erməniləri də müdafiə edirdi. Ermənistan isə Naxçıvan və başqa ərazilərlə bağlı niyyətlərini həyata keçirmək üçün ən çox Rusiyaya ümid bəsləyirdi. Ermənistan 1920-ci il dekabrın 2-də həm Rusiya, həm də Türkiyə ilə müqavilə bağladı. RSFSR ilə Sovet Ermənistanı arasında bağlanan hərbi-siyasi sazişə görə, keçmiş İrəvan quberniyasının Ermənistanın tərkibinə daxil olmasının sovet hökuməti tərəfindən mübahisəsiz tanınması qəbul edilirdi. Türkiyə ilə Ermənistan arasında bağlanan Gümrü (Aleksandropol) müqaviləsi isə Rusiya və onun təhriki ilə Ermənistan tərəfindən qəbul edilmədi. Lakin bununla belə, bu müqaviləyə görə,

*Ardı 4-cü səhifədə*

Naxçıvan bölgəsinin düşmən əlinə keçməməsi üçün “həmin ərazidə hələlik Türkiyənin himayəsində yerli hökumət yaradılması” qərara alınmışdı. Ötən əsrin 20-ci illərində beynəlxalq münasibətlərdə və dünyada yaranmış şərait Türkiyə ilə Rusiyanın yaxınlaşmasına, onlar arasında isti münasibətlərin və son nəticədə müəyyən razılaşmaların baş tutmasına gətirib çıxartdı. Türkiyə hökuməti Rusiya ilə diplomatik münasibətlər qurmaq və iki ölkə arasında dostluq müqaviləsi imzalamaq üçün fəallığını artırdı və bunun üçün Bəkir Sami bəyin başçılığı ilə nümayəndə heyəti Moskvaya gəldi. Danışıqlar nəticəsində sovet-türk müqaviləsinin layihəsi hazırlandı. Gələcəkdə Rusiya-Türkiyə danışıqlarının Bakıda keçirilməsi razılaşdırıldı. Lakin bir qədər sonra RSFSR Xalq Xarici İşlər Komissarı G.Çiçerin konfransın Moskvada keçiriləcəyini və burada Azərbaycan və Ermənistan nümayəndələrinin də iştirak edəcəyini bildirdi. Əslində, bununla G.Çiçerin konfransa Azərbaycanı və Ermənistanı qatmaqla həm bu dövlətlərin xarici siyasətini öz əlində cəmləşdirmək və Türkiyəyə qarşı qoymaq, həm də gələcəkdə Güney Qafqazdakı niyyətlərini həyata keçirmək üçün zəmin hazırlamaq istəyirdi.

Türkiyə bu təkliflə razılaşmadı. Türkiyə Azərbaycan, Gürcüstan və Ermənistanla ayrı-ayrılıqda müqavilə bağlamaq istəyirdi. Üstəlik, Türkiyə bildirirdi ki, onların Azərbaycanla heç bir mübahisəli məsələsi yoxdur. Ermənistana gəldikdə isə, Türkiyə Gümrü (Aleksandropol) müqaviləsini qüvvədə hesab edir və ondan imtina etmək istəmirdi.

1921-ci ilin fevral ayında Ankara hökumətinin yeni xarici işlər naziri Yusif Kamal bəyin başçılığı ilə Əli Fuad və doktor Rza Nurdan ibarət diplomatik nümayəndə heyəti Moskvaya gələrək yeni danışıqlara başladı. Danışıqlarda Rusiya tərəfindən G.Çiçerin və RSFSR MİK üzvü C.Qorxmazov iştirak edirdi. Müzakirələr çox gərgin keçmiş və hətta danışıqlar bəzən pozulmaq həddinə çatmışdı. Bir sıra məsələlərlə yanaşı, danışıqlarda Naxçıvan məsələsinə də xüsusi əhəmiyyət verilmişdi. Türkiyə bu məsələyə ona görə böyük önəm verirdi ki, Naxçıvan Türkiyə-Azərbaycan əlaqələrində ən yaxın məsafədə yerləşirdi.

Moskva danışıqlarında Azərbaycanın təmsilçisi Behbud ağa Şahtaxtinski də iştirak edirdi və uğurlu nəticənin əldə edilməsində onun mühüm xidməti olmuşdur. Belə ki, o, 1921-ci il martın 1-də V.İ.Leninə göndərdiyi məktubda Naxçıvan, Zəngəzur, Dağlıq Qarabağ ərazilərinin gələcəyindən duyulan narahatlığı çatdırmış, bu mahalların milli tərkibi və coğrafiyasına dair arayışları da əlavə etmiş, Güney Qafqazda sərhəd məsələləri və xüsusilə də Naxçıvan bölgəsi ilə bağlı faydalı təkliflər vermişdi. Lenin bu təkliflərlə tanış olduqdan sonra onu Siyasi Büroya göndərmişdi. Behbud ağa Şahtaxtinskinin məktubu martın 16-da Stalinin, Çiçerinin və digərlərinin iştirakı ilə baxılmış və Azərbaycanın himayəsində Naxçıvana muxtariyyət statusu verilməsi haqqında qərar qəbul olunmuşdu. Belə bir qərarın qəbul edilməsinə 1921-ci ilin yanvarında Naxçıvanda keçirilən referendumun böyük təsiri olmuşdu.

Bütün bunlar Moskva müqaviləsində əks olundu. Bir aya yaxın davam etmiş danışıqların yekunu 1921-ci il martın 16-da imzalanmış “Dostluq və qardaşlıq haqqında” RSFSR-Türkiyə müqaviləsində öz əksini tapdı. Moskva müqaviləsi 16 maddədən və 3 əlavədən ibarət idi.

Moskva müqaviləsinin üçüncü maddəsi və I (B) əlavəsi bilavasitə Naxçıvanla bağlı idi. Müqavilənin 3-cü maddəsinə əsasən belə bir qarşılıqlı qərar qəbul edildi ki, Naxçıvan vilayəti bu müqavilənin I (B) əlavəsində göstərilən sərhədlərdə Azərbaycanın himayəsi altında heç bir üçüncü dövlətə güzəştə getməməsi şərti ilə muxtar ərazi təşkil edir. “Naxçıvan ərazisi” adlı I (B) əlavəsində isə bölgənin sərhədləri müəyyənləşdirildi: “Ararat stansiyası – Saray – Bulaq dağları – Kömürlüdağ – Sayatdağ – Qurdqulaq kəndi – Həməsur dağı – yüksəklik (8022) – Küküdağ və keçmiş Naxçıvan qəzasının şərq inzibati sərhədi”.

Beləliklə, Rusiya hökumətinin ermənipərəst mövqeyinə və erməni kommunistlərin riyakar siyasətinə baxmayaraq, Naxçıvan əhalisinin qətiyyətli, dönməz iradəsi, Türkiyənin ədalətli mövqeyi və görkəmli diplomat Behbud ağa Şahtaxtinskinin səyləri ilə Naxçıvan Azərbaycanın tərkibində saxlanıldı. V.İ.Lenin Türkiyə ilə sülh sazişindən danışarkən demişdi ki, bu, “bizi Qafqazdakı daimi müharibələrdən xilas edir”. Nəriman Nərimanov qeyd etmişdir ki, “Sovet Rusiyası və Türkiyə ilə müqaviləyə əsasən Naxçıvan Azərbaycanın tərkibində müstəqil respublika elan olunur. Orada bizim nümayəndəmiz olacaqdır və biz bütün münasibətlərdə Naxçıvana xidmət edəcəyik”. Yusif Kamal bəy isə yazmışdır ki, “Naxçıvan müsəlmanları bir daha soyqırıma məruz qalacağı halda türk ordusunun buna biganə qalmayacağı rəsmi olaraq sənədləşdirilmişdir”.

Moskva müqaviləsinin imzalanmasının böyük tarixi əhəmiyyəti vardır. İlk növbədə, bu müqavilə Rusiya ilə Türkiyə arasında mövcud olan problemləri həll etdi. Rusiya və Türkiyə sıx ittifaqda birləşdi, təbii müttəfiqə çevrildilər. Moskva müqaviləsi Azərbaycanın bütövlüyünü qorudu və Naxçıvanın ərazi mənsubiyyəti məsələsinə aydınlıq gətirdi. Bu müqaviləyə görə qədim türk-oğuz yurdu olan Naxçıvan Azərbaycan sərhədləri içərisində qaldı. Eyni zamanda Naxçıvanın statusunun bu müqavilədə əks olunması böyük siyasi əhəmiyyət kəsb etdi və gələcək muxtariyyət üçün əsas yaratdı.

Bütün bunlara baxmayaraq, erməni daşnakları XX əsr boyu Naxçıvanı ilhaq siyasətindən əl çəkməmiş, ötən əsrin 90-cı illərinin əvvəllərində buraya silahlı basqınlar etmiş, Moskva və Qars müqavilələrinin ləğv edilməsi üçün xeyli fəallaşmışlar. Lakin ümummilli liderimiz Heydər Əliyev 1992-ci ilin mart ayında Türkiyə Cümhuriyyətində səfərdə olarkən Moskva və Qars müqavilələrini gündəmə gətirmiş, bu müqavilələrin xalqımızın həyatındakı tarixi rolunu yüksək qiymətləndirmişdir.

Göründüyü kimi, Naxçıvanın muxtariyyəti statusu bu gün qüvvədə olan Moskva beynəlxalq müqaviləsi ilə təsdiqlənir. Bu muxtariyyət milli-etnik yox, siyasi amillərlə, Naxçıvanın özünəməxsus geopolitik və tarixi-coğrafi mövqeyi ilə şərtlənib. Müqaviləni imzalayan heç bir dövlət onu birtərəfli qaydada ləğv edə bilməz. Çünki Moskva müqaviləsinin birtərəfli qaydada ləğvi beynəlxalq müqavilələr haqqında 1969-cu il Vyana konvensiyasının, 1975-ci il Helsinki müşavirəsinin Yekun aktının müddəalarına ziddir.

Naxçıvanın Azərbaycanın tərkibində muxtariyyət statusu qazanması beynəlxalq Moskva müqaviləsi ilə rəsmiləşdirilib. Özü də müddətsiz dövr üçün. Bu müqavilənin müddətsiz bağlanması onun tarixi əhəmiyyətini daha da artırır. İfrat erməni millətçilərinin Moskva müqaviləsini qüvvədən salmaq üçün dəfələrlə müxtəlif hiylələrə əl atmalarına baxmayaraq, bu tarixi sənəd öz hüquqi qüvvəsini bundan sonra da qoruyub saxlayacaqdır.

## “Ölkəmizi tanıyaq” devizi ilə keçirilən maarifləndirici tur-aksiyalara start verilib

***Azərbaycan Prezidenti cənab İlham Əliyevin tapşırığına əsasən respublikamızın şəhər və rayonlarının məktəbliləri üçün “Ölkəmizi tanıyaq” devizi ilə keçirilən maarifləndirici tur-aksiyalara martın 15-də Naxçıvan şəhərində də start verilib.***



Tur-aksiya çərçivəsində Naxçıvan şəhərində keçirilən sınaq imtahanlarında yüksək nəticə əldə edən 160 şagird 20 bələdçi-müəllimin müşayiəti ilə Naxçıvan Beynəlxalq Hava Limanından Bakı şəhərinə yola düşüb. Məktəblilər Bakı şəhərində Fəxri xiyabanda ümummilli lider Heydər Əliyevin məzarını və Şəhidlər xiyabanını ziyarət edəcək, Heydər Əliyev Mərkəzi ilə yanaşı, əhəmiyyətli mədəni-tarixi yerlərlə də tanış olacaqlar.

Bakı şəhərinə yola düşən tur-aksiya iştirakçısı, Naxçıvan şəhər 2 nömrəli məktəbin 11-ci sinif şagirdi Murad Quluzadə ilə söhbətimizdə bildirdi ki, bu cür tur-aksiyaların keçirilməsi, ümumilikdə, ölkəmizin tarixinin, mədəniyyətinin, adət-ənənələrinin öyrənilməsinə geniş şərait yaradır. Bakıya səfəri zamanı paytaxtımızın inkişafının canlı şahidi olacağını qeyd edən Murad Quluzadə deyib: “Dövlətimizin başçısının tövsiyəsi ilə reallaşan bu layihə sayəsində biz şagirdlər ölkəmizi daha yaxından tanıyacağıq. Bizə bu şəraiti yaratdığına görə Prezidentimizə minnətdarlığımı bildirirəm”.

Naxçıvan şəhər 12 nömrəli məktəbin 11-ci sinif şagirdi Oruc Əliyev deyib: “Ölkəmizi tanıyaq” tur-aksiyası biz məktəblilərin dünyagörüşünün zənginləşməsinə böyük təsir göstərəcək. Tur-aksiya ərzində bu günədək görmədiyimiz tarixi yerlərlə tanış olmaq imkanı qazanacaq, paytaxtımız Bakı şəhərini yaxından tanıyacaq, yeni məlumatlar əldə edəcəyik”.

## Naxçıvan şəhəri ilə tanışlıq bakılı məktəblilərdə zəngin təəssürat oyadıb



***Martın 15-də “Ölkəmizi tanıyaq” devizi ilə keçirilən maarifləndirici tur-aksiya çərçivəsində Bakı şəhərinin Xətai, Səbail, Yasamal, Nəsimi, Binəqədi və Qaradağ rayonlarından olan 162 məktəbli 18 bələdçi-müəllimin müşayiəti ilə Naxçıvan Muxtar Respublikasına gəlib.***

Məktəblilər əvvəlcə ümummilli lider Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsini ziyarət ediblər.

Sonra şagirdlər Heydər Əliyev Muzeyinə gələrək buradakı ekspozisiyalarla tanış olublar. Məlumat verilib ki, bu gün muzeyin fondunda ulu öndərin həyat və fəaliyyətini əks etdirən 4600-dən çox eksponat toplanıb. Muzey Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 1999-cu il fevralın 18-də imzaladığı Sərəncam əsasında yaradılıb və 1999-cu il mayın 10-da fəaliyyətə başlayıb.





Muzeydə ümummilli liderimiz Heydər Əliyevin uşaqlıq və gənclik illərinə həsr olunmuş stendlər, onun Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işlədiyi dövrə aid (1991-1993) şəxsi sənəd və materiallar, imzaladığı sərəncamlar, qərarlar, Türkiyə Cümhuriyyəti və İran İslam Respublikası ilə əməkdaşlıq sahəsində imzaladığı müqavilələrin surətləri, həmin illərdə Azərbaycan Respublikasının müxtəlif bölgələrində yaşayan vətəndaşların müraciətləri toplanıb. Muzeyin kitabxanasında ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən jurnal, albom və kitablar saxlanılır.

Naxçıvan Dövlət Xalça Muzeyində olan şagirdlərə bildirilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı ilə 1998-ci ildə fəaliyyətə başlayan muzey 2010-cu ildə yeni bina ilə təmin olunub. 2013-cü ildə isə muzeyin ekspozisiyası yenidən qurulub. Hazırda burada 3 mindən çox eksponat var. Naxçıvan Dövlət Xalça Muzeyinin daimi ekspozisiyası içərisində xovlu və xovsuz xalçalar, müxtəlif əl işləri, tikmələr, toxuculuq alətləri, mis və saxsı qablar nümayiş etdirilir.

Məktəblilər “Xan Sarayı” Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksi ilə də tanış olub, bu tarixi abidələr haqqında ətraflı məlumat alıblar.

Şagirdlər regionun nüfuzlu ali təhsil ocaqlarından olan “Naxçıvan” Universitetində də olublar. Burada şagirdlərə məlumat verilib ki, 1999-cu ildən fəaliyyət göstərən universitetdə hazırda 4 fakültə, 10 kafedra, 5 şöbə var. 2015-ci ildə “Naxçıvan” Universiteti üçün istifadəyə verilən yeni universitet şəhərciyinə rektorluq binası, iki tədris korpusu, kitabxana, sosial xidmət mərkəzi, yataqxana, idman və konfrans zalları daxildir.

Qeyd olunub ki, yaradılmış hərtərəfli şərait nəticəsində ali təhsil ocağının tələbələrinin sayı hər il artır. 2017-2018-ci tədris ilində universitetdə 1000-ə yaxın tələbə təhsil alır. Bu tədris ilində universitetdə 16 ixtisas üzrə mütəxəssis hazırlığı aparılır. Ali təhsil ocağında təhsilin keyfiyyəti yüksəldilir, ixtisas fənləri üzrə elmi dərəcəsi olan müəllimlərə üstünlük verilir, tədris zamanı müasir təlim texnologiyalarından istifadə diqqətdə saxlanılır.

**Xəbərlər şöbəsi**

### İtmişdir

Babək rayonunun Nehrəm kənd sakini Səfərov Hüseynqulu Əli oğlunun adına olan JN-947 inventar nömrəli 10300058 kodlu torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

**ŞƏRQ qapısı**

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Mətanət Məmmədova

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1490. Sifariş № 223